# "Azərbaycan Bayrağı" ordenli şəhidin 30 yaşı məzarı başında qeyd olunmuşdur

**Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatların qarşısının alınmasında Qazaxın igid oğulları da qəhrəmancasına döyüşərək adlarını Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazmışlar. Onların arasında Kəmərli kəndindən olan baş gizir Azər Məmmədov da var.**

44 günlük Vətən müharibəsində Azər torpaqlarımızın bütövlüyü uğrunda qəhrəmancasına vuruşmuş, sinəsini düşmən gülləsinə sipər edərək şəhidlik zirvəsinə ucalmışdır. Qanı ilə tarix yazan igid vətən oğlu bununla xalqın məhəbbətini qazanmışdır. Vaxtilə təkcə valideynlərinin övladı olan Azər Məmmədov bu gün hər bir Azərbaycan vətəndaşının doğması, əzizidir.

Vətən müharibəsində göstərdiyi qəhrəmanlığa görə o, "Zəngilanın azad olumasına görə" və "Vətən müharibəsi iştirakçısı" medallarına, ölümündən sonra isə "Azərbaycan Bayrağı" ordeninə, həmçinin "Vətən uğrunda" medalına layiq görülmüşdür.

Bu günlər igid Azərin 30 yaşı rayon rəhbərliyi və ictimaiyyəti tərəfindən məzarı başında qeyd olunmuşdur. Məzar önünə toplaşanlar Vətən uğrunda canından keçən Azər Məmmədovun ruhuna dualar etmiş, onun kimi cəsur oğullarımızın daim qəlblərdə yaşayacaqlarını söyləmiş, Azərbaycan



xalqının qüruru, fəxri olan bütün şəhidlərimizin xatirəsini daim əziz tutacaqlarını qeyd etmişlər. Şəhidin atası Mustafa Məmmədov çıxış edərək ailəsinin, el-obasının adını uca edən oğlu ilə fəxr etdiyini söyləmiş və övladına göstərilən diqqətə görə minnətdarlığını bildirmişdir.

Azərbaycan.-2023.- 7 mart.-S.10.